**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**"Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsin ləğv edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 13 fevral tarixli 48-07/S nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

"Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsin ləğv edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 13 fevral tarixli 48-07/S nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsin ləğv edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 13 fevral tarixli 48-07/S nömrəli Sərəncamına (bundan sonra – Sərəncam) uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları on beş gündən gec olmayaraq, Sərəncamın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Sərəncama uyğunlaşdırılmasını təmin edib, bu barədə iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin ləğvi ilə əlaqədar onun istifadəsində olan dövlət əmlakı ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

5. Bu Sərəncamın icrası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericiliyin və proqramların icrasına nəzarət şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “17” fevral 2025-ci il

№ 17s